AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA



*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

5 AVQUST 2022-ci il CÜMƏ № 164 (7346) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



# "Qisas"

## Müzəffər Ordumuzun antiterror əməliyyatı

### Azərbaycan ərazisində baş verən insidentin bütün məsuliyyəti qanunsuz silahlı birləşmələrini hələ də torpaqlarımızdan çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərindədir

**Müdafiə Nazirliyindən verilən məlumata görə, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-taxribat əməli törədib. Terror-taxribat nəticəsində hərbi qulluqçu əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub.**

Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərib.

(davamı 2-ci səhifədə)



# "Qisas" – Müzəffər Ordumuzun antiterror əməliyyatı

## Azərbaycan ərazisində baş verən insidentin bütün məsuliyyəti qanunsuz silahlı birləşmələrini hələ də torpaqlarımızdan çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərindədir

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürüb. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılıb, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilib. Nəticədə, qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilib və yaralanıb, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilib.

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin törətdikləri terror-təxribat əməllərinə cavab olaraq Azərbaycan Ordusunun keçirdiyi "Qisas" əməliyyatı ilə bağlı Müdafiə Nazirliyində keçirilən brifinqdə nazirliyin mətbuat xidmətinin rəis müavini polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, üçtərəfli Bəyanata, kapitulyasiya aktına zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Həmin ərazilərin demilitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərksilah edilməsi mütləq şəkildə labüddür. Müdafiə Nazirliyi bəyan edir ki, Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq bundan sonra ölkənin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks - cavab tədbirləri daha da sarsıdıcı olacaq. Müzəffər Azərbaycan Ordusunun Qarabağdakı qanunsuz erməni silahlı dəstələrinə vurduğu sarsıdıcı zərbələr Ermənistan üçün böyük dərs, eyni zamanda son xəbərdarlıq olmalıdır. Qüdrətli Azərbaycan Ordusu bugünkü qisas əməliyyatları ilə bir daha göstərdi ki, suveren ərazilərimizdə terrorun, separatçılığın kökü nəyin bahasına olursa-olsun, qətiyyətlə kəsiləcək. Cavab əməliyyatları nəticəsində bir neçə hakim yüksəkliklərin nəzarətə götürülməsi, düşmənin xeyli sayda canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsi ilə şəhid hərbçimizin də qisası alınıb. Antiterror əməliyyatları, düşmənin qanunsuz hərbi obyektlərinin bir neçə dəqiqə ərzində yerlə-yeksan edilməsi Azərbaycanın qətiyyətli, eyni zamanda ədalətli və barışmaz mövqeyinin nümayişidir.

"3 avqust tarixində baş vermiş qanlı insident bir daha Ermənistanın üçtərəfli razılaşmanı kobud şəkildə pozduğunu, eyni zamanda iki dövlət arasında münasibətlərin normallaşması istiqamətində səylərə xələl gətirdiyini nümayiş etdirir. Bu, həmçinin Ermənistanın beynəlxalq vasitəçilərin səylərinə hörmətsizliyinin göstəricisidir". Azərbaycan ərazilərinin təhlükəsizliyi, sərhədlərinin bütövlüyünün təmin edilməsi üçün tərəfimizdən bütün müvafiq tədbirlər bundan sonra da davam etdiriləcək", - deyə bununla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur. Bildirilir ki, Azərbaycan ərazisində baş verən insidentin bütün məsuliyyəti qonşu dövlətin torpaqlarında qanunsuz silahlı birləşmələrini hələ də çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərindədir.

Bir məsələni də qeyd etmək lazımdır ki, Azərbaycan və Rusiya prezidentlərinin, həmçinin Ermənistan baş nazirinin birgə imzaladıqları 10 noyabr 2020-ci il tarixli Bəyanatın maddələrini kobud şəkildə pozan erməni hərbçiləri işğaldan azad edilmiş ərazilərimizdə atəşkəs rejiminə riayət etmir, təxribatlar törədirlər. Bir müddət əvvəl Azərbaycan Prezidenti İlham Əliyev məlum sənədin 4-cü bəndinin icra edilməməsi ilə bağlı etirazını maraqlı tərəflərə və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdı. Bundan sonra Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan öz aləmində bu maddədən doğan tələbin icrasını təhrif edərək bildirmişdi ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisindən çıxarılacaq, Qarabağa hərbi xidmət üçün erməni çağırışçılar göndərilməyəcək, ancaq "özünümüdafiə qüvvəsi qalacaq", "bu birləşməyə çağırışlar keçiriləcək, habelə müqavilə əsasında könüllülər cəlb olunacaq". Bu, bütün hallarda Azərbaycan ərazisində qanunsuz silahlı birləşmə saxlamaq cəhdi, yaxud rəsmi İrəvanın imzaladığı kapitulyasiya aktının şərtlərinə əməl etməməsidir. İstənilən dövlətin öz ərazisində hərbi əməliyyat keçirməsi, yaxud cinayətkarları zərərsizləşdirməsi onun müstəsna hüququdur. Bu, beynəlxalq hüquqda və konvensiyalarda təsbit edilib. Çünki belə olmasa həmin cinayətkarlar həm regional, həm də qlobal miqyasda təhlükə mənbəyinə çevrilə bilər.

"Qisas" əməliyyatı erməni terrorçuların məhv edilməsi və strateji yüksəkliklərin nəzarətə götürülməsi ilə nəticələnib. Müdafiə Nazirliyinin rəsmi məlumatında nəzarətə götürülən ərazilərdə mühəndislik işlərinin aparılmasına dair qeyd isə əməliyyatın dayandırıldığını deməyə əsas verir. Lakin əməliyyatın davam edəcəyi də istisna deyil. Vacib məqam isə odur ki, Azərbaycan Ordusunun qanunsuz erməni silahlılarının təxribatı nəticəsində əsgərimizin şəhid olmasına dərhal reaksiya verərək, "Qisas" əməliyyatına başlaması və qısa müddətdə rus sülhməramlılarının himayəsində terrorçuluqla məşğul olan dəstəyə ağır zərbə vurması Ermənistanda bomba effekti yaradıb və eləcə də müxtəlif xəbər saytlarında, teleqram kanallarında böyük rezonans doğurub. Belə ki, erməni mediası və rəsmilərinin açıqlamaları Azərbaycan Ordusunun təxribata bu qədər kəskin və sərt reaksiya verəcəyini gözləmədiklərini təsdiq edir. Görünən budur ki, Ermənistan 44 günlük müharibədən sonra bütün üçtərəfli və ikitərəfli bəyanatları, razılıqları ayaq altına atır. Bu isə işğalçılıq ritorikasından əl çəkmək fikrində olmadıqlarından xəbər verir. Müdafiə Nazirliyi "Qisas" əməliyyatı ilə bağlı yeni məlumat yayıb. Bildirilib ki, Azərbaycan Ordusunun keçirdiyi "Qisas" əməliyyatından sonra Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində, o cümlədən dövlət sərhədində nisbi sakitlikdir.

**Mustafa KAMAL,**
**"Respublika".**